## Mən beləyəm...

Mən beləyəm...
Saflığımdan gen
düşmərəm.
Təmizliyi, sədaqəti
Milyonlara dəyişmərəm...
Gözlərimdə bu dünyanın
Var-dövləti bir həvəsdir,
İsti ocaq, kasıb komam,
Dürüstlüyüm mənə bəsdir.
Adı insan, özü ilan olanları
Köməyimə səsləmirəm...
Nəfsin ani ləzzətini
İstəmirəm...
Bir ağacam...
Kökün üstə boy atmışam,
Babaların arzusunu
əməlimdə yaşatmışam...
2017

Mən beləyəm...

Vüsal Hicranoğlu

Vüsal Hicranoğlu



# Mən beləyəm...

VÜSAL HİCRANOĞLU

# *MƏN BELƏYƏM...*

**Bakı - 2017**

Redaktoru
və ön sözün müəllifi: **Ağasəfa**

Son sözün
müəllifi: **Günay Səma Şirvan**

**Vüsal Hİcranoğlu. Mən beləyəm...**
**Bakı, "Təknur" - 2017. 120 səh.**

*"Mən beləyəm ..." şeirlər və miniatürlər toplusu olan bu kitab gənc yazar Vüsal Hicranoğlunun ilk kövrək addımı, oxucularla ilk görüşüdür.*

*Bir gənc kənd müəlliminin qələmindən, bilgiyazarından çıxan bu yazılarda sıravi bir insanın dünyanı anlamaq, dərk etmək cəhdi var. İnsana məhəbbət var, gənclik eşqi var, eyham var, kinayə var, zarafat və dodaqqaçırdan yumor var.*

**ISBN: 978-9952-445-04-9**

**© V.Hicranoğlu, 2017**

*Redaktordan*

**KİM NƏ MİQDAR OLSA...**

Ömrünün qan qaynayan dövrünə, gəncliyin aşıb-daşan, qayğılarla əhatələnmiş mərhələsinə yetişmiş Vüsal Xızı bölgəsinin Giləzi qəsəbəsində yaşayan, çalışan, yeni nəslin təlim-tərbiyəsinə can qoyan tarix müəllimidir.

Dəmir yollar meydana gələndə dağ kəndlərinin polad kimi, qaya kimi kişilərini dolanışıq ucbatından düzənliyə endirdi. Dəmir yolların qonşuluğunda yaşayış məskənləri yarandı. Zəhmətkeş, əzabkeş, qayğıkeş insanların yeni nəsilləri yeni mühitə uyğunlaşmağa çalışdılar.

Bu gün Xızının Giləzi, Sitalçay qəsəbələrində yaşayanlar çörək dalınca dağdan enmişlərin oğul-uşaqları, nəvə-nəticələridir.

İkinci Dünya müharibəsinin aclıq, yoxsulluq illərində Qızılgül anamız Giləzidə min bir əziyyətlə, kiçik bir daxmada Cabir Novruzu ərsəyə yetirib. Cabir Novruz ilk şeirlərini, "Gecə qatarlar keçər" lirik poemasını burda yaradıb.

Bir zaman rəngarəng şeirləri ilə ədəbi diqqətdə olan, təəssüf ki, dünyasını vaxtsız-vədəsiz dəyişən:

*Məhəbbətin yollarında qüssədən,*
*Səadətdir saçlarıma düşsə dən.*
*Məhəbbətsiz ömr eləyən kimsədən*
*Bir aşiqin məzar daşı yaxşıdır!*

– deyən Həmzə Səfərovun məzarı, üzü Xəzərə baxan məzar daşı Giləzidədir.

İnişilə qədər arabir başına toplaşdığımız ağsaqqalımız, bütün ömrünü halal müəllimliklə başa vurmuş, bizə şeir kitablarını yadigar qoymuş Adil Küskünün mehriban baxışları həmişə gəlir göz önünə...

Cabir, Həmzə, Adil burda, ağır illərdə bir məktəbdə oxumuşdular...

Adil müəllim bu kiçik kitabın müəllifi olan Vüsalın ən qayğıkeş, ən canıyanan müəllimi, yolgöstərəni olub...

Vüsalın şeirə olan həvəsi, gəncliyə xas isti, ılıq nəfəsi bu qaynaqlara, bu çağlayanlara köklənib. İndi bu yığcam, ümid doğuran şeirləri ilə o, şeir-sənət yoluna çıxmaq arzusundadır... "Niyyətin hara, mənzilin ora" deyiblər bizdən əvvəlkilər.

Söz – üççə hərfdir. Sözü kimin necə deməsindən asılı olaraq, qiyməti verilir. Əsl saf, halal, təmənnasız-filansız qiyməti isə əlahəzrət oxucu verir.

Ən əvvəl isə dahilərimizin sözü hər iki qulağımıza sırğa olsun gərək. Dahi Məhəmməd Füzuli demişkən:

*Artıran söz qədrini sidq ilə,*
*qədrin artırar,*
*Kim nə miqdar olsa, əhlin eylər*
*ol miqdar söz.*

Üzünü sözə çevirmisənsə, sözü özünə həmdəm, dərd yoldaşı, qəm sirdaşı seçmisənsə, sərvaxt ol, sərraf ol, Tanrı köməyin olsun, Vüsal qardaşım...

***Ağasəfa***
*Xızı rayonu,*
*Qarabulaq kəndi.*

# ŞEİRLƏR



***

Nələri görmədim bu dünyada mən,
Bəzən doğmalar da mənə yad oldu.
Əqidəm, məsləkim, andım, ilqarım
Həyat yollarıma qol-qanad oldu.

Bir zaman üstümü unlu görənlər
"Dən, Koroğlu" deyib... çağırdı məni.
Vurdu ürəyimdən amansız həyat,
Küt gedən kündətək yoğurdu məni.

Üzüm gülər oldu, qəlbim pərişan,
Ancaq ürəyimdə ağladım, anam.
Sirri bölüşməyə adam tapmadım,
Sirrimi içimdə saxladım, anam.

Sözümdən istəyim göyərdi mənim,
Dalğatək köksümü döydü məhəbbət.
Deyirdim... əyilməz dağlar kimiyəm,
Görürəm qəddimi əydi məhəbbət.

Səadət atlıdır, mənsə piyada,
Yüyürdüm ardınca... çata bilmədim.
Uçurtdum əlimdən tale quşunu,
Hey qovdum... hey qovdum...
tuta bilmədim.

Nələri görmədim bu dünyada mən,
Bəzən doğmalar da mənə yad oldu.
Əqidəm, məsləkim, andım, ilqarım
Həyat yollarıma qol-qanad oldu.

***2017***

## DAĞLARIN

Bulud sığallayır ağ saçlarını,
Bilmirəm neçədir yaşı dağların.
Çarpışır, vuruşur qarla, boranla,
Nələr çəkməyibdir başı dağların.

Yorulub yadları əzizləməkdən,
Yenə ayrılmayıb əsildən, kökdən.
Üzgün insan kimi yol gözləməkdən
Yaman çatılıbdır qaşı dağların.

Keçmişi sirr dolu, təlatüm dolu,
Rahat keçməyibdir bu sonsuz yolu.
Elə bil dil açır ağacı, kolu,
Bir tarix danışır daşı dağların.

Ey Vüsal, bu dağlar səni əzizlər,
Zirvələr əl elər, yolunu gözlər.
Bürüyər qəlbini duyğular, hisslər,
Anlamaz dilini naşı dağların.

***2013***



Necə qəribədir insan həyatı,
Bəzən an deyəni il deyə bilmir.
Xəyanət dilinə bir möhür vurur,
Gözlər söyləyəni dil deyə bilmir.

## MÜŞFİQİN SON ŞƏKLİNƏ

Necə qəribədir insan həyatı,
Bəzən an deyəni il deyə bilmir.
Xəyanət dilinə bir möhür vurur,
Gözlər söyləyəni dil deyə bilmir.

Şəklinlə durmuşam indi üz-üzə,
Həyat əzabıyla qandırır məni.
Məşəqqətlə dolu üzgün baxışlar
Qəlbimə od salır, yandırır məni.

Ahınla titrədi Azərbaycanım,
Ahınla buludlar saldılar kölgə.
Ahınla yanıbdır Xızı dağları,
Ahınla qırmızı boyanıb bəlkə.

Yaram köz bağlamır, nakam Müşfiqim,
Bu da bir qismətdir yaşayıram mən.
Yurdundan Müşfiqlər pöhrələnibdir,
Qəm yemə, ruhunu daşıyıram mən.

***2013***

## ARZULAR

Necə məlahətli, necə də incə,
Dərdimi, qəmimi alar arzular.
Ürəkdən-ürəyə neçə yol çəkib,
Üstündən körpülər salar arzular.

Arzular həyatda gül kimi olur,
Rəngiylə, ətriylə ürəklər dolur.
Bəsləsən, göyərir, baxmasan, solur,
Ümidsiz insanda solar arzular.

***Gədəbəy,***
***2008***

## İLK VƏ SON NƏĞMƏ

Ömründə bircə dəfə
Oxuyur qu quşları
Ölümü hiss edəndə.
Vidalaşıb gedəndə...

Çəkilib xəlvət guşəyə
İlahi nəfəsilə,
Tükənməz həvəsilə,
Quş dilinin sehriylə
Ecazkar bir çələng
Toxuyur qu quşları.

Bu yanğılı nəğmədə
Allah bilir nələr var,
Dünya dolu məhəbbət,
Dünya dolu kədər var.

Səni fikrə daldırır,
Qəlbi yandırır, yaxır,
Bəlkə də bu nəğməylə
Onu vaxtsız haqlayan
Haqq bildiyi ölümün
Gözlərinə dik baxır.

Düşünürsən bircə an,
Kaş qu quşları kimi
Ölümün gözlərinə
Dik baxa hər bir insan.

***2012***



Ay büllur,
Batini saf,
İşığından pay alan
Ulduzlar daha şəffaf.

***

Göy üzü tərtəmiz,
Gecə işıqlı...
Kəhkəşana düzülən
Ulduzlar yaraşıqlı...
Ay büllur,
Batini saf,
İşığından pay alan
Ulduzlar daha şəffaf.

Göy – Allaha gedən yol,
Burda yerə nisbətən
Ədalət bol, saflıq bol.
Heç nə daimi deyil,
Hərdən sönür ulduzlar.

Vaxtı çatdı,
Hara gedir,
Hara dönür ulduzlar?
Ölən ulduz yerə düşmür...
Xəta-bəla dəf edilir.

Yer üzü bulaşıqdır,
Hər işi dolaşıqdır,
Ona görə
Ölən ulduz
Elə göydə dəfn edilir.

***Giləzi, 2012***



***

Gilə-gilə əriyirəm,
Bilə-bilə əriyirəm,
Gülə-gülə əriyirəm
Həyatda.

Aza-aza öyrənirəm,
Yoza-yoza öyrənirəm,
Yaza-yaza öyrənirəm
Həyatda.

Gəzə-gəzə yaşayıram,
Bezə-bezə yaşayıram,
Dözə-dözə yaşayıram
Həyatda.

***

Dənizi sevmirəm...
Ancaq
Sahilində gəzişim...
Dağ ürəyindən
                    qaynayan
Bulaqlarladır işim...



## ƏSİRGƏMƏ

Beynim – süfrə,
Fikirlərim –
Bu süfrənin
Naz-neməti.
Ya rəbb,
Məndən
Əsirgəmə
Öz-özümə
Çox bildiyim
Bu sərvəti.

***2013***

***

Ötür xınalı kəklik,
Qəlb oxşayır nəğməsi,
İnsanı valeh edir
Çağlayan çayın səsi.

Əlvan xalıya bənzər,
Yamyaşıldır çəmənlər.
Qəlb oxşayan naxışı
Nərgizlər, yasəmənlər.

Yurdumun hər qarışı,
Təzələyir yaddaşı.
Sirli abidələrdir
Burda hər addımbaşı.

Al Günəş qarşılayır,
Salamlayır hər kəsi.
Deyirəm: nə gözəldir
Bizim Odlar ölkəsi.

***

Qoynunu açmışdı Xızı dağları,
Bir şeir söylədim, sözümdən öpdü.
Əyildim bulaqdan doyunca içdim,
Ağbulaq daşları dizimdən öpdü.

Məni qarşıladı qohumlar, yadlar,
Beynimə güc verdi yeni təzadlar.
Aldı ağuşuna doğma Sayadlar,
Müşfiqimin ruhu üzümdən öpdü.

## QIYMA ŞAİRLƏRƏ

*Şair-publisist Əli Rza Xələfliyə*

Gün keçir, ay keçir, yaş olur əlli,
Şair ömr edirmi bir düz-əməlli?
Ancaq yazılardır qəlbə təsəlli,
Qıyma şairlərə, qıyma, a dünya.

Hələ vücudunda təpər qalıbdır,
Sözdə yenilməyən kəsər qalıbdır.
Neçə yazılmamış əsər qalıbdır,
Qıyma şairlərə, qıyma, a dünya.

Şair baxışının öz dili vardır,
İlhamın göylər tək mənzili vardır.
Qəlbində dağ boyda nisgili vardır,
Qıyma şairlərə, qıyma, a dünya.

Sözdən bəhrələnən könül tox olar,
Düz söz nadanlığı dələr, ox olar.
Şairlərsiz bütün bəşər yox olar,
Qıyma şairlərə, qıyma, a dünya.

***Bakı, 2007***

## ÖZ BƏXTİM...
## ÖZ TALEYİM...

Harayıma hay vermədi,
Arzulardan pay vermədi,
Öz bəxtim... Öz taleyim...

Göz-göz olan yaralarım
Qaysaqlanıb bitişmədi.
Yolunu uzaqdan saldı,
İmdadıma yetişmədi
Öz bəxtim... Öz taleyim...

Ruhumu çapdı, taladı,
Hər nə tapdı... yağmaladı.
Qəm üstünə qəm caladı,
Öz bəxtim... Öz taleyim...

***2017***

## ALLAHIMA SIĞINMIŞAM

Bu dünyada ola-ola
O dünyanı yaşamışam.
Bəzən elə bilmişəm ki,
Yer üzündə quru daşam.

Tutubdur həsrət yaxamı,
Al qanımı nuş eləyib.
Üzüdönük zaman məni
Bəlalara tuş eləyib.

Vüsal yolun addımlayıb,
Sonunda hicran görmüşəm.
Mələklər cildində olan
Nə qədər şeytan görmüşəm.

Dost dediyim, dost sandığım
Yoluma daş-kəsək atıb.
Güvənib bel bağladığım
Sonda məni pula satıb.

Bizi yoxdan var eləyən
Ulu haqqa tapınmışam.
Ətəyindən yapışmışam,
Allahıma sığınmışam.

***2017***

## BU HƏYAT DEDİYİN...

Bu həyat dediyin yuxudur, qardaş,
Açıb açmasını, yoza bilərsən?
Allahdan payına düşən qisməti,
Varmı cəsarətin, poza bilərsən?

Bu həyat dediyin bilinməyən sirr,
Bir bağlı mücrüdür, açarı itmiş.
Girər qılığına bir “gəlin” kimi,
Həyası, abırı, isməti bitmiş.

Bu həyat dediyin ikiüzlüdür,
Gah ağlar, gah da ki, üzünə gülər.
Yükləyər belinə qəm şələsini,
Necə ağır yükdür çəkənlər bilər.

***

Dərdmi məni belə əydi,
Mənmi dərdə əyildim?.
İndi heyrət içindəyəm,
Mən ki belə deyildim.

Bəlkə də Allahımdan
Bu imiş qismət, qədər.
Öz dərdimə sığınıb,
Yaşayıram birtəhər.

***2012***

## BİR AHA DƏYMƏZ

*Dayım Azərə*

Biz nələr yaşadıq, nələri gördük,
Külümüz sovruldu, köz içimizdə.
Neçə istəyimiz qəfəsdə qaldı,
Əriyib mum oldu söz içimizdə.

Ömürdən saymıram dərdsiz günləri,
Ömür yollarıma dərdlər sədd çəkib.
Sevinc yol tapanda, qonaq gələndə
Baxıb dərdlərimə, xəcalət çəkib.

Gileyli deyiləm öz taleyimdən,
Bəndənin qarğışı Allaha dəyməz.
Həyatı duyandan dərk eləmişəm,
Bu dünya çəkilən bir aha dəyməz.

***2017***

## ZAMANINI GÖZLƏ

Fələk bəxti paylayanda
Aralığa yaylıq düşüb.
Kiminə vüsal, səadət,
Kiminə ayrılıq düşüb.

Kimisinə Günəş düşüb,
Kimisinə duman, tüstü.
Kimini bəxt qucaqlayıb,
Görüşübdür ayaqüstü.

Kimlərisə haraylayıb
Mənzilinə qonaq edib.
Kimlərisə oxla, yayla
Kandarından uzaq edib.

Kiminsə başını qatıb
Ürəkaçan adi sözlə.
Sənə sarı dönər bir gün,
Səbr et, zamanını gözlə.

***2017***



## BU MƏNZİLDƏ

Sinə daşı, baş daşları
Qarşılayar sirdaşları.
Daşlaşdırar yaddaşları,
Susar zaman bu mənzildə.

Halallığı seçən ömrün,
Gül əkib, gül biçən ömrün,
İbadətlə keçən ömrün
Olmaz peşman bu mənzildə.

Həyata düz aç gözünü,
Gecə sanma gündüzünü.
Ölməmişdən bir özünü
Düşün bir an bu mənzildə.

Haram işə qursan tədbir,
Şeytan ilə olsan əlbir,
Bil ki sənə İnkir, Minkir
Tutar divan bu mənzildə.

***2010***

***

Bir gün bu dünyaya
"Əlvida" desəm,
Bulaq gözləriylə
                    ağı deyib,
Ağlar məni.
İnsan unutqandır,
Unudar...
Amma
Bilirəm, unutmaz
Bu dağlar məni.

***2017***

***

Biri dedi: – Fikir vermə,
Çox uşaqdır,
Yaşı çatmır.
Biri dedi: – Ağılsızdır,
Başı çatmır.
Yorulmuşam tənələrdən,
Yorulmuşam iztirabdan.
Yetiş dada, ey Allahım,
Qurtar məni bu əzabdan.

***2010***

## YOX

İç dünyamı gəzmişəm,
Çox mətləblər sezmişəm.
Özümdən də bezmişəm,
Sığınacaq məkan yox.

Bizim bu həndəvərdə,
Çalış tutulma dərdə.
Doğulduğum bu yerdə
Mən yazığı duyan yox.

Biri soyar, biri çapar,
Adam burda mərəz tapar.
Ölüm, gəl, məni tez apar,
Səbr edəcək zaman yox.

***2013***

## İNSAN ÖMRÜ

Bəlkə də nağıldır insanın ömrü,
"Cırtdan"ı "div"ləri aldadır hərdən.
Fikir ümmanına bir qarmaq atır,
Azad ola bilmir düşüncələrdən.

Saat kəfkiri tək tələsir anlar,
Bir-bir yer dəyişir, ötür fəsillər.
Qayçı əqrəblərin iti dililə
Xəbərsiz, ətərsiz kəsilir illər.



Yağ, yağışım...
Deyirlər ki, bərəkətsən.
Artsın xeyir, azalsın şər.
Bir-bir gəlib yada düşsün
İncə, kövrək xatirələr.

## YAĞIŞ YAĞIR

Yağış yağır narın-narın,
Dilə gəlir duyğularım.
Ürəyimdə baş qaldırır
Saysız olan damlalartək
Tükənməyən qayğılarım.

Yağ, yağışım...
Deyirlər ki, bərəkətsən.
Artsın xeyir, azalsın şər.
Bir-bir gəlib yada düşsün
İncə, kövrək xatirələr.

Payız gəlib...
Xəzələ dönüb yarpaqlar.
Eşqimizə şahid olan
Qamətli şam ağacının
Yamyaşılca yarpağı var.

Həmişə öz qəlbimizdə
Saf arzular daşıyardıq.
Təravətli olsun deyə
Bu ağacın altındaca
Alovlanan məhəbbətlə
Qoşalaşıb yaşayardıq.

Yetim qalıb indi sevgim,
Yollarına boran düşüb.
Yamyaşıldır şam ağacı,
Sevgimizə xəzan düşüb.

Yağ, yağışım...
Deyirlər ki, bərəkətsən.
Artsın xeyir, azalsın şər.
Bir-bir gəlib yada düşsün
İncə, kövrək xatirələr.

***Bakı, 2004***

## XƏYALIN

Asılıb kirpiyimdən
Şirin bir yuxu kimi,
Baxırsan oğrun-oğrun,
Yaralı ürəyimi
Yaxırsan oğrun-oğrun.
Həmdəmim sakit otaq,
Yoldaşım – kağız, qələm.

Ağ vərəq üstündə də
Hey… əksini görürəm.
Xəyalımda canlanır,
Eh, əzizim, eh, nələr...
O sənli xatirələr...
Gecə keçib, yatmıram,
Yaxşı ki, xəyallar var,
Uzun zaman qət edib
Tapa bilirəm səni.

Sənin xəyallarındır,
Həkk olunub yaddaşa.
Məni öz qələmimlə
Yenə qoyub baş-başa.

***2012***

# GƏL, GÖR MƏNƏ EŞQ NEYLƏDİ

*Yüyürürəm yana-yana,*
*Eşq bürüdü məni qana,*
*Nə aqiləm, nə divanə,*
*Gəl, gör mənə eşq neylədi?!*
***Yunus Əmrə.***

Eşq bürüdü məni ağa,
Qoymaz dönəm sola-sağa.
Saldı ayaqdan-ayağa,
Gəl, gör mənə eşq neylədi?!

Gör bu ürək yarasını,
Tapmadım bir çarasını.
Yedi gözüm qarasını,
Gəl, gör mənə eşq neylədi?!

Bu gözəlim can alandı,
Sonda yollar haçalandı.
Aman, ürək parçalandı,
Gəl, gör mənə eşq neylədi?!

Ayılmadım bu röyadan,
Xəbər də yox gen dünyadan.
Pay almadım o sevdadan,
Gəl, gör mənə eşq neylədi?!

Dərdi verdi bilə-bilə,
Saldı məni dildən-dilə.
Rüsvay etdi eldən-elə,
Gəl, gör mənə eşq neylədi?!

***2005***

## TƏZADLI DÜNYA

Dünyanın işlərinə
Məəttələm hələ də.
Çaqqallar iş başında,
Yalquzaqlar tələdə.

***2017***



***

Bəxti dayazların
Ağlı dərin.
Bəxti dərinlərin
Ağlı dayaz.
İştə
Həyat hekayəsi...
Götür, yaz.

***2013***

***

Görəsən dik durub
hardan güc alıbdır dağlar?
Neçə minlik yaşı vardır,
qocalıbdır dağlar?

Zirvəsiylə dirənibdir
göyün ənginliyinə,
Yerə möhkəm kök atıbdır,
ucalıbdır dağlar.

Gözləyir dostları, göz yolda,
durub lal, dinməz,
Qoca şair kimidir,
fikrə dalıbdır dağlar.

İtirib Cəfərini,
nakam olan Müşfiqini,
Enməyibdir, yenə yaddan
bac alıbdır dağlar.

Şair övladınız
əsla sizi yaddan silməz,
Bu Vüsal çünki sizə mehr salıbdır,
dağlar.

***

Görəsən dərdimi
kim ol güli-rüxsarə desin,
Canı cismimdən alan
sevgili dildarə desin.

Qaş kaman, kirpiyi oxdur,
çəkib eşqin yayını,
Naz, qəmzəylə vurub
qəlbimə min yarə desin.

Göz görüb, sevdi könül,
yoxmu əlac dərdə, görən
Varmı bir çarə bilən,
nola, gəlib çarə desin?.

Gülünün hali olar
dərdü qəmindən bülbül,
Nə səbəb var, axı,
öz dərdini gül xarə desin?

Vüsala yoxdu kömək
bəndədən, əlbəttə, gərək
Üz tutub sidq ilə o,
kami-dilin Yarə desin.

## YERİ, GET...

Eheey!
Mənimlə çəkişən kəs,
Öcəşən kəs,
Sənin bu kor cəhdin əbəs,
Sənin bu zor cəhdin əbəs!
Öz aybından utanmayan,
Başqasında nöqsan tutan,
Tutduğun işlərdən utan.
Bilirsənmi?
Zaman olub...
Yaşamağım güman olub...
Öz-özümdən usanmışam,
Sınmamışam...
Ümidimi qırmamışam,
Gücümə arxalanmışam.
Yadı arxa sanmamışam.
Sən xəzinə üzərində
Otursan da ilan kimi,
Gözümdəsən
Su üzündə saman kimi.
Nə olsun ki, yoxdur mənim
Brilyantım, zorum, zərim,
Könlüm tox, ürəyim sərin...

Rahatlığım— əl qabarım,
alın tərim.
Bu canımı yora-yora
Yıxılmışam, dikəlmişəm.
Ucsuz-bucaqsız yollara
Dar cığırlarla gəlmişəm.
Göstər görüm
Əlindəki qabarını,
Deyən deşdim
İrinləmiş qübarını.
Mən sənintək
Yıxılandan, büdrəyəndən
Kam almıram...
Xainliyi bacarmıram...
Əziyyətlə qazanmışam
Halallığı, adı, sanı.
Sən,— ey mənə çamur atan,
Yeri, get! Özünü tanı!

***2017***

## ASTADAN GƏZ

Vəzifə xanım,
Bir məni dinlə,
Sən mənim canım.
Əlin yapışqan,
Pula alışqan.
Yalnız və yalnız
Katibən üçün
Açılır meşin
Qapın,
Özünsə içəridə
Kef edirsən
Arxayın.
Katibən də
Sənin tayın.
Bilinməyir
Başın, leşin.
Daş üyüdür
Tamah dişin.

Üz silikon,
Saçın qaynaq.
Çoxdan keçib
Əndazəni...
Yaxşı tanıyırıq səni.

Kimin sənə
İşi düşsə,
Deyir:
"Ondan əlqərəz! "
Birdən sürüşərsən ha,
Gəzəndə
Astadan gəz...

***2017***



Bir ağacam...
Köküm üstə boy atmışam,
Babaların arzusunu
Əməlimdə yaşatmışam...

## MƏN BELƏYƏM...

Mən beləyəm...
Saflığımdan gen
düşmərəm.
Təmizliyi, sədaqəti
Milyonlara dəyişmərəm...
Gözlərimdə bu dünyanın
Var-dövləti bir həvəsdir,
İsti ocaq, kasıb komam,
Dürüstlüyüm mənə bəsdir.
Adı insan, özü ilan olanları
Köməyimə səsləmirəm...
Nəfsin ani ləzzətini
İstəmirəm...
Bir ağacam...
Köküm üstə boy atmışam,
Babaların arzusunu
Əməlimdə yaşatmışam...

***2017***

## ŞURAABADDA
## BİR OVDAN VAR...

Xəzərin sahilində...
Şuraabadda
Bir ovdan var –
Əsrlərin yadigarı...
Ey yolçu, ayaq saxla,
Bu ovdanla
Bir yolüstü
Danış barı...
Əzəlindən ona həzin
Layla deyən
Ləpələrin vurğunudur.
Sirr doludur,
Əsrlərin yorğunudur.
Pillələri endin... Sonu
Dərin... quyu...
Bir zamanlar bu quyuya
Toplanırmış yağış suyu.
Küləyə əks səmtdən
Qoyularmış bura giriş.

Yol ayırıcı... karvan yolu...
Üzərində tikilərmiş.
Şah Abbasın mirasıdır
Bu ovdan.
Çat verməyən daşları
Tanışdı mənə.
Karvanlar doyurub,
Yolçular görüb...
Daş dili bilənəm,
Bunu
Daşlar danışdı mənə.

***2017***

## FƏLƏKLƏ OYUN

*( Zarafatyana )*

Fələklə oyun oynayırıq,
Uşaq oyunu...
Yolum düşəndən kəndə
“Bənövşə” də
                    saldı bəndə,
Sonra başladı “Gizlənqaç”,
Yumdu gözümü,
Dedi: “Mən deyəndə aç!”
Ümidim qaldı Allaha...
İndi
“Qaçdı-tutdu” oynayırıq...
Mən qaçıram,
Ay tutdun ha!

***2017***

## ANAMIN NƏVƏLƏRİ

*(Zarafatyana)*

Beş nəvəsi var anamın:
Mehdi, Mircəfər, Faiq,
Mələkxanım, Zəhra xanım.
Hamını öpür, əzizləyir...
Yaman səbirsizdir anam,
Oğul nəvəsi gözləyir...

***2017***

## DÖZMƏZ ÜRƏK

Ünüm çatmaz dərgahında üst ünə,
Bu dünyanın altı nədir, üstü nə?
Mənəvi bir mərəz gələ üstünə,
Dözməz ürək, dözməz onda bu dərdə.

Zəmanədə dolan namus, dolan ar,
Bağçalara dola heyva, dola nar.
O zaman ki, dərd boğaza dolanar,
Dözməz ürək, dözməz onda bu dərdə.

And içərəm tanrımızın haqqına,
Ha çalışsan, sığışmayar haqq qına.
Vay o günə namərd girə haqqına,
Dözməz ürək, dözməz onda bu dərdə.

## GƏTİRİR, ÖTÜRÜR...

Yaz səhəri...
Günəşin şəfəqləri
Öpür üzümdən,
Məni sənə gətirir.
Axşam düşür
Ay, ulduzlar,
Təbəssümlə
Evimizə ötürür.

## ZALIM FƏLƏK

Sən çalış say saydığını,
Gör fələk nə sayırmış.
Bir də onda ayıldım:
Həmin o zalım fələk
Səni məndən ayırmış.

***2004***



## İKİLİKLƏR

Həyatın əzəldən budur təməli:
İnsanı ucaldar onun əməli.

Çalış ki, vaxtını ötürmə hədər,
Ötən hər anına ver qiymət, dəyər.

İnsanın kimliyi sözündən bəlli,
Əməllə verərsən qəlbə təsəlli.

Hökm etsə dünyada pislik, cəhalət,
Məhvə sürüklənər insanlıq, əlbət.

Özgə bostanına daş atsan əgər,
Qayıdıb axırda özünə dəyər.

Həyatda pisliyi etməyə nə var?
Çalış, axirətə yaxşı ad apar.

Yer üzrə ədalət olsa bərqərar,
Bütün insanlar da səadət tapar.

## DÖRDLÜK

Səpildi könlümə sevgi toxumu,
Yerində bir əlçim qəm pöhrələndi.
İçimin həsrəti diddi yaxamı,
Gülər gözlərimdə nəm pöhrələndi.



## SORUŞ

Bilmək istəyirsən kiməm, nəçiyəm?
Qarşında ucalan o dağdan soruş.
Zirvədə qıy vuran qartala boylan,
Ətəkdə çağlayan bulaqdan soruş.

Həsrət yedəyində boynu büzüşən,
Dərdin yalmanında qovrulan, bişən,
Mənim taleyimlə üst-üstə düşən
O boylu çinardan, qovaqdan soruş.

Bu Vüsal eşq ilə çəksə də min qəm,
Onun yanmağıdır dərdinə məlhəm.
Yanmağa can atan, atəşə həmdəm,
Pərvanə nə çəkir, çıraqdan soruş.

***2013***

***

Parıltı gözünü qamaşdırmasın,
Hər parlayan qızıl deyil, qadası.
Var-dövlət könlünü bulaşdırmasın,
Təmizlik ayrıdır, atam balası.

Üstü küllülərə üzdən yanaşma,
Bəlkə də altında sönməyən közdür.
Əyri yola düşüb həddini aşma,
Düz düzdə qalsa da, yenə də düzdür.

Ayağını isti saxla, başını sərin,
Hərcayı sözlərdən sənə nə fayda?
Sözü demədin... sənindir,
dedin... özgənin,
Əzəldən belədir dünyada qayda.

***2017***

# BAYATILAR

Bu çaylar axar, ağlar,
Könlümü yaxar, ağlar.
Aşiq o vəfasıza
Kənardan baxar, ağlar.

***

Günü qaralı aşiq,
Könlü yaralı aşiq.
Nə zamandır düşübdür
Yardan aralı aşiq.

**2005**

## ƏL ÇALANLAR - ALÇALANLAR

Bir dayanın, düşünün hey!
Cahilliyə, nadanlığa,
Min hiyləyə
Əl çalanlar.
İnsanlığın gözlərində
Zirvələrdən dərəyədək
Alçalanlar.

***2012***

## DUZA GEDƏN QIZ

Eşitmişəm çoxları
Elçi düşüb qıza... gedir...
Qız isə nəm-nüm eləyir,
Yaşı iyirmi yeddidir...
Duza gedir...

***2017***



## DEDİ, DEDİM

Dedi:
– Villa olsa, maşın olsa,
Sənə gələrəm ərə.
Dedim: – Ay qız,
Villa olsa, maşın olsa,
Sənin mənə xoşun olsa...
Mən uçaram başqa yerə...

***2017***



***

Deyirdim... Allah yaradıb,
Qüsurludur, əlildir.
Axı hardan biləydim
Bu, başdan da zəlildir.



***

Uçurdu şosselərdə
“Porşe”də,
“Mercedes”də.
İndi düşüb çürüyür,
Dar hücrədə, qəfəsdə.



## CÜRBƏCÜRLƏR

**1.**

Elə aparır özünü
Guya sadədən sadədir.
Kimliyinə bələdəm,
Əsl haramzadədir.

**2.**

Payı yaman çox düşüb,
Nə yaman dingildəyir.
Kəsəsən qulağını,
Görəsən zingildəyir.

**3.**

Maraqlıdır hər kəsə:
Harda tanış olublar?
Bir yerdə dingildəyib,
Barda tanış olublar.

**4.**

Adını yazdırıbdır
Kişilər kitabına.
Oturub yuxarıda
Arvadın hesabına.

**5.**

Elə yalan danışır,
Dik də baxır gözünə.
Başdan-başa riyadır,
Baxmaq olmur üzünə.

***2017***

## CİNLİ AĞAMİRZƏ

Bizim bu Ağamirzə
Məndən yazdı ərizə.
Şöbəyə çağırdılar,
Üstümə bağırdılar.
Çoxunu çəkdim xəlvətə,
Yatmadı bir söhbətə.
Dedi ki, "nervinni" yəm,
Cin vurubdu, cinliyəm.
O gün dözdüm birtəhər,
Axır açıldı səhər.
Dedilər öz xoşuyla
Götürübdür ərizəni.
Yəqin cin buraxmışdı
Bizim Ağamirzəni.

***2017***

# TÜLKÜNÜN DAYDAYI VAR

Qurd da düşdü təşvişə:
“Sən allah, bir bax işə.
Tülkü açıb əl, ayaq,
Nə vaxtdan olmuş qoçaq?.
Yaman salıb vəlvələ,
Hamıya qurur tələ.
Çoxu çəkir əzabın,
Verməliyəm cavabın.”
Ayı dedi: “Canavar,
Meşə sənə dar olar.
Bilməyirəm yaşını,
Tez əkərlər başını.
Yaxşı gör bu həyatı,
Etmirəm zarafatı.
Önündə çəkər hasar,
Arxalıdır qurd basar.
Tülkünün öz “payı” var,
Aslan tək daydayı var.”

## TƏMİZLİK SORAĞINDA

Ata Rusiyada,
Ana Dubayda.
Sən təmizlik
Sorağında...
Bunlar nə hayda...

***2017***

## ARVADDAN QORXAN

Elə ki, arvad olmur,
Dil-dil ötür...
Elə ki, arvadı gördü,
Qorxudan pörtür.

***2017***



## QONŞUMUN ZƏNNİ

Qonşumun zənn etdiyi
Sonunda doğru çıxdı.
Doğruluqdan dəm vuran
Axırda oğru çıxdı.

***2017***



## YALANÇI

Pulu olmayanda:
“ Belə edək,
Elə edək...”
Xeyir işdən söz açır...
Pulu oldu,
Ərşə çəkilir,
Aradan çıxır, qaçır...

***2017***

***

Millət yayda qar tapır,
Qışımın buzu yoxdur.
Mən yazıq neyləyim ki,
Əlimin duzu yoxdur.



## KİTABPƏRƏST ŞAİR

Qalaq-qalaq kitabı var,
Ölçüsü yox,
Vəzni yox...
Özünü bəyən,
Sözünü yox...

***2017***



## TANIMADI

Qürrələndi, öyündü,
Onu heç kim qınamadı.
Meşə ayını tanıdı,
Ayı meşəni tanımadı.

***2017***



## ÖZÜNÜ BİLMİR

Yaman coşur,
Aşır-daşır,
Sözünü bilmir.
Hamıya bir vedrə qoşur,
Özünü bilmir.

***2017***



# İTLƏ FİLİN QONAQLIĞI

Qonaq etdi Fil İti,
Kef məclisi qurdular.
Səhərəcən vurdular,
Danışdılar, güldülər,
Sirlərini böldülər.
İt dedi ki: – Fil qardaş,
Səni lap əvvəlindən
Yaxşı tanıyaydım kaş…
Bir ara ucbatımdan
Qalmış idin pis günə,
Məni bağışla… nolar,
Mırıldadım üstünə.
İndi qulluğundayam,
Nə deyirsən… eyləyim.
Zaman başqa zaman idi,
Məni qınama… neyləyim?

***2017***

## İNTİHAR

Tutuquşu verdi qərar
Ki… eləsin intihar.
Aldığı son nəfəsdə
Namə yazdı qəfəsdə:
"Ölümümdə təqsirkar
Bilməyəsiz heç kəsi,
Mən buna vadar oldum,
Onun-bunun dediyini
Təkrar- təkrar
söyləməkdən
El içində xar oldum."

***2017***

## SƏSVERMƏ

Mənə yeni nəfəs verin,
İlhamlanım... həvəs verin.
Təki siz mənə səs verin:
“Nə yesəniz mən verərəm,
Su verərəm, dən verərəm.”

***2017***

## TELEMÜSAHİBƏ

Veriliş başlayandan
Söz almadı qonaqlar.
Aparıcı danışdı,
Həlak etdi özünü,
Bitirincə sözünü:
“Əziz tamaşaçılar,
Görməyəsiz qəm, kədər
Gələn görüşümə qədər.”

***2017***

## TELEVİZOR

Ər:
– Bezdim televizordan,
Qırıldayır... xırıldayır...
Arvad:
– Yaxşı işləyir, ay kişi,
Deputatdır... xoruldayır...

***2017***

# DODAQQAÇDILAR



## SUYUM ON ALTINCI MƏRTƏBƏYƏ QALXIR

Tərlan universitetin hüquq fakültəsini bitirib, təyinat alıb işə başlayandan rəis gününü qara elədi. Adamınkı gərək adamla düşə deyirəm. Rəis hər dəfə metronun qarşısından keçəndə saçını arxaya tumarlayıb, özündən razı halda: “Mənim suyum səkkizinci mərtəbəyə qalxır” deyir, səkkizinci mərtəbədəki mənzilinə eyham vururdu. Ürəyində qan ağlayan Tərlan dərindən köks ötürür, bilmirdi neyləsin. İşinin xətri üçün dözməliydi. Rəis haqlı olsaydı, dərd yarı idi. Haqq-nahaqq düşürdü yazığın üstünə. Adamsız olduğunu bilirdi.

”Krişa”sı olsaydı, nə həddi vardı ki, ona söz deyə. Ən azından özü çəkinərdi ki, kreslosunu laxlada bilərlər. Yeddi il bu minvalla işlədilər.

Rəis “ixtisar” olundu.

On ilə yaxın Tərlan onun üzünü görmədi. İndi artıq özü rəis idi. Bir gün təsadüfən metronun önündə qarşılaşdılar. Üz cizgilərindən sabiq rəisi tanıdı. "Bəlkə o deyil" deyə bir tərəddüd də var idi içində. Beli bükülmüş, üzü qırışmış, əlindəki əsayla güclə yeriyirdi. Tərlan yaxınlaşıb, onun sabiq rəis olduğunu dəqiqləşdirəndən sonra özünü təqdim edib, əvvəlki günləri xatırladaraq:

– Rəisəm. İndi mənim suyum on altıncı mərtəbəyə qalxır, – deyib metronun həndəvərində yenicə aldığı mənzilini barmaqla göstərdi.

Və... Tərlan ürəyindən tikan çıxmış kimi yoluna davam edirdi.

***2017***

## HƏƏ... BELƏ DE

– Ay Məmmədtağı, səndən bir söz soruşum.

– Buyur, görək nə buyurursan.

– Dünən toyda gur-gur danışan o gədə kim idi?

– Hansı gədəni deyirsən?

– O qəhvəyi rəngli kostyum geyinmişdi e. Qırmızı qalstuku da mal dili kimi...

– Hə, bildim. Boş nağara idi.

– Sən canın, kim idi o? Maraq məni boğur. Gecəni səhərəcən yatmamışam.

– O cür danışmağına baxma. Sən tanımasan da, mən onu çox gözəl tanıyıram.

Dayday hesabına özəl universitetlərdən birinə, özü də ikinci kursa qəbul olundu. Adi yazı savadı belə yoxdur. Kim soruşur, deyir ki, BDU-nu bitirmişəm. Dil pəhləvanıdır. Dillə dağı dağ üstə qoyar. Nə qədər istəsən, şərəfdən, ləyaqətdən, kişilikdən danışsın.

Tanımayan olsa, deyər ki, bundan yoxdur. Amma kələkbazın biridir. Tülkü bilsə ki, onun belə həmkarı var, bu həndəvərdə dolanmaz. Dayday hesabına da babat yerdə işləyir. Məsələn, səni görsə, dilinə güc verib, elə danışar ki, deyərsən hansı yerin zorbasıdır belə. Məni görəndə dili gödəlir, danışa bilmir. Bilir ki, bütün zibillərini bilirəm. Amma hərdən mənim yanımda da qoyur üstünə, cəh-cəh vurur.

– Bəs yanımızda əyləşən o sadə oğlan kim idi? Eynəkli.

– O, BDU-nu bitirib.

– Harda işləyir?

– Sumqayıtda pal-paltar satır .

– Həə... Belə de.

***2017***

## QƏRİBƏ AND

Səmədağa sözün əsl mənasında "novatordur". Bəzən elə andlar içir ki, eşidən məəttəl qalır.

– Necə bəyəm?

– Necə olacaq, danışdığı yalanlara adamı inandırmaq üçün belə bir and düzüb-qoşub:

"Arvadımın namusuna and olsun". Arvadı bir-iki fırıldaq elədi. Mən də xəbərdar oldum. Fikirləşdim ki, daha bu cür andları dilə gətirməz. Hə, indi yenisini işə salıb.

– Hansını?

– "Namusuma, qeyrətimə and olsun."

– Dayy nə istəyirsən, "arvadım" sözünü ixtisara salıb da.

***2017***

## PUL HƏRİSİ

Amanın günüdür, Allah eləməmiş, Versənəmə işin düşə, nəsə xahiş edəsən. Mısmırığını sallayıb əzazil baxışlarıyla, dili ilə deməsə də, “xahişini qayış elə, bağla belinə” ifadəsini sezəcəksən üzündən. Gəl ki, “kağız parçasını” görəndə uşaq zooparkda tovuz quşunu görüb anasına: “Ana, xoruza bax, gül açıb” deyən kimi çiçəyi çırtlayacaq.

***2017***

## QONŞUYLA SÖHBƏT

– Müəllim, nə vaxtdandır görünmür sən. İşlərin necədir?

– Şükür, ay qonşu. Allah deyib durmuşuq. Zəmanə dəyişib, evdə oturub öz işimizlə məşğul olsaq yaxşıdır.

– Bu Xandəmir lap salıb eşşəkliyinə. Deyirəm ki, kanalizasiyanı düzəlt, hasarım dağılacaq. Anlamır ki, anlamır.

– Qonşu, Xandəmirə uzunqulaq deməklə heyvanı təhqir etmə.

– Anlamadım, müəllim.

– Uzunqulaq həyalı heyvandır. Nə vaxt hansısa uzunqulağın burnunu axan, yaxud üstünü palçıqlı görmüsən? Yazıq heyvanı bizləyirsən, yenə də minib sürürsən. Gör heç bircə dəfə sənə şıllaq atır? Yox! Öz doğma qardaşına, bizləmək yox e, adi bir acı söz desən, illərlə üzünə baxmaz. Bu yazıq hər cəfaya dözür, sözümüzdən çıxmır. Bir dəfə batdığı palçığa ikinci dəfə, öldürsən belə, girməz.

– Müəllim, vallah düz deyirsən. Allah ömrünü uzun eləsin. Bu Xandəmirə "eşşək" demək, doğrudan da, o heyvana qarşı hörmətsizlikdir.

***2017***

## OLANIM BUDUR

Bir tanışım var. Ara-sıra görüşürük. Sağlığına qismət, imkanı heç pis deyil. Vay o günə ki,bundan borca bir az pul istəyəsən. Elə bil xəncərinin qaşı düşür. Yoxlasan, beş-altı cibi var. Manatlıqlar birində, beşliklər o birində, onluqlar digərində. Xülasə, hamısının da yerini əzbər bilir. Əllilikləri, yüzlükləri isə corablarının içinə dürtür. Borc adı gələndə əlini cibinə salır, manatlıqları çıxarıb, məyus-məyus dillənir:

– Dədəmin goru haqqı, olanım budur!

***2017***

## QARDAŞ, MƏNİ NECƏ TANIYIRSAN?

– Müəllim, eşitmişəm Kəlbəlixanov Əkbərağayla arandan su keçmir. Bir müşkülüm var, bəlkə həll edə. Deyirlər, əli uzundur, dost-tanışı çoxdur. Xəcalətindən də çıxaram.

– Sən Allah, qoy oturmuşuq.

– Nə oldu?

– Onun əli yağlı olsa, öz başına sürtər. İtə də, qurda da borcu var. Az qalır, borcların əlindən dəli ola. Hələ mənim başıma açdığı oyundan xəbərin olsa, əlin üzündə qalar.

– Danış, bilək də...

– Əkbərağayla yaxşı münasibətim vardı. Süfrəmin başında oturan adam olub. Əvvəllər bir pislik də görməmişəm ondan, adamın başının üstündə Allah var. Şəhərə ki köçdü, əlaqəmiz kəsildi. Beş ilə yaxın üzünü görmədim. Bir gün gördüm telefonuma zəng gəlir. Kim olsa, yaxşıdır? Əkbərağa. Xoş-beş,

qayıtdı ki, qardaş, səndən ötrü burnumun ucu göynəyir. Keçirdiyimiz günləri xatırlayanda az qalıram havalanım. Şəhərdə yerini verən yoxdur. İstəyirəm gəlim oralara, oturub dərdləşək. Nə zaman ürəyin istəyir, gəl, dedim. Üstündən üç-dörd gün keçmişdi, darvaza açıldı. Əkbərağa, arvadı, uşaqları təşrif buyurdular içəri. Nə başını ağrıdım, özünü elə göstərdi ki, sevindim. Yuxarılarla əlaqələrinin olmasından ağzı köpüklənənəcən danışdı. Daha nələr, nələr...

Bir çətinliyim vardı. Boyun oldu ki, həll edəcək.

– Sonrası?

– Sonrasını soruşmasan yaxşıdır. Şəhərə gedən kimi təzədən zəng etdi mənə ki, qardaş, işini danışmışam, narahat olma. Ancaq bir az pul lazım olacaq. Pul da nə pul, nə az, nə çox, düz mənim iki illik məvacibim civarında. Səndən yaxşı olmasın, bir-iki nəfər ağız aça biləcəyim adam var. Onlarla

əlaqə saxladım, dedilər narahat olma, təki işin düzəlsin. Pul məsələsini həll edən kimi Əkbərağaya zəng elədim, gəlib apardı. İki həftəyə qədər Əkbərağa özü iki gündən bir mənlə əlaqə saxlayıb deyirdi: ”Qardaş, narahat olma, hər şey yüksək səviyyədədir”. Bu, onun ən sevdiyi cümləsidir. Hardan biləydim ki, başımın altına yastıq qoyur. Sonradan Əkbərağa atlı oldu, mən piyada. Hətta zənglərimə belə cavab vermirdi. Zəngimdən bir həftə keçəndən sonra yadına düşəndə zəng edir, vədlər verir, sevimli cümləsini tutuquşu kimi dönədönə təkrarlayırdı. Altı ay bu minvalla məni aldatdı. Sən demə, neçə nəfərə borcu var imiş. Pulu məndən alan kimi aparıb köhnə borclarından bir-ikisini bağlayıb. Təzə ov axtarırmış ki, ondan alıb mənim pulumu qaytara. Mən də bu hərəkətindən sonra pərdəni tamam götürdüm aradan.

Yeddinci aydan sonra xəbər etdi ki, bəs, gəlirəm, qardaş, evdə ol. İçəri daxil

olan kimi başladı dil-ağız etməyə, bəhanələr gətirməyə. Üstəlik qayıtdı ki, qardaş, məni necə tanıyırsan? Neçə ildir yoldaşlıq edirik. Dedim, əvvəllər səni bir yaxşı insan kimi tanımışam. Amma bundan sonra soyadından ilk üç, adından isə ilk iki hərfin birləşməsindən alınan söz kimi. Tüstülənə-tüstülənə getdi. Odur, budur, Əkbərağadan bir xəbər yoxdur.

***2017***

## İNDİKİ UŞAQLAR

İndiki uşaqlarla əvvəlkilər arasında yerlə-göy qədər fərq var. Qabaq böyük-kiçik vardı, ədəb-ərkan vardı. Böyük əyləşən yerdə kiçiyin nə həddi vardı ki, ağzını açıb nəsə söz deyə. Bəs necə oldu ki, uşaqlar belə dəyişdi? Deyəsən, səbəbini tapmışam. Görün haqlıyam, yoxsa yox?!

Əvvəllər analar uşaqların beşiyi başında məlahətli səslə, mışıl-mışıl yatmamız üçün layla deyərdi. İndikilər isə özünə əziyyət verməməkçün radiodan, internetdən, səsgücləndiricidən istifadə edirlər. Layla da nə layla, az qalır, səsindən qulaq bata.

Uşaq yazıq o səsdə necə yuxuya gedə bilər, hələ də anlaya bilmirəm. Bu, bir səbəb.

Ana südü uşağın böyüməsində əvəzsiz rola malikdir. İndikilərin çoxu bundan vaz keçir ki, uşağa süd versəm kalorim azalar. Bu, növbəti səbəb.

İşimizin rahatlığı naminə əcnəbi kanallarda olan cizgi filmlərindən birini tapıb uşağı saatlarla əyləşdiririk televizorun qarşısında. Təki baş-qulağımız dinc olsun. Nəticəsi nə olur? Uşaqlarımız gec dil açır. Dil açanların da leksikonu əcnəbi sözlərlə zənginləşir, nəinki ana dilində. Hətta uşaqların cizgi filminə baxmaq istəyini bir az gecikdirsək, başlayırlar özlərini yerə sürtməyə. Bunlar bir yana qalsın, mentalitetimizə zidd olan çox vərdişləri əxz edir uşaqlarımız. Bu, ən dəhşətlisidir. Bu da digər səbəblərdən biri.

Səbəblər çoxdur... Xülasə, düşünürəm ki, belə də qalmışıq min şükür. Allah sonundan saxlasın!

*2017*

## SON SÖZ ƏVƏZİ

Hər bir xalq yaratdığı ədəbiyyatla dilini, ruhunu yaşatmaq, tarixi-mənəvi kimliyini, etnoqrafik yaşam tərzini, folklor dəyərlərini, fikir-düşüncə özünəməxsusluğunu qoruyub saxlamağa çalışır.

Poeziya təkcə sözlərin musiqili səslənişi deyil, şairin daşıyıcısı olduğu missiyasının dil-ruh mücadiləsi vasitəsi ilə nitqin cazibədar ifadəsidir.

Bizi əhatə edən – gördüyümüz, duyduğumuz, hiss etdiyimiz, eşitdiyimiz hər şey yaradılmışdır. İnsan özü belə Yaradılış məhsuludur. Bəlkə də buna görə insanın təyinatı yaratmaqdır.

Şeirlər və miniatürlər kitabını əlimizdə tutduğumuz gənc yazar Vüsal Hicranoğlu bu təyinatı sirli-sehrli bir ecazkarlıqla sabahlara daşımaq üçün bədii yaradıcılıq yolunu seçir:

*Necə qəribədir insan həyatı,*
*Bəzən an deyəni il deyə bilmir.*
*Xəyanət dilinə bir möhür vurur,*
*Gözlər söyləyəni dil deyə bilmir.*

Sərhədsizlik – müəyyən forma və mövzu daxilində dairə ilə çevrələnib qalmamaq "Mən beləyəm" kitabının əsas məziyyətlərindəndir. Şeirlərində şairin dünyaya baxışı, həyata yanaşması, Bəxt, Tale, Dərd, Fələk deyilən nəsnəyə münasibəti qəlibləri dağıdır:

*Bu həyat dediyin bilinməyən sirr,*
*Bir bağlı mücrüdür, açarı itmiş.*
*Girər qılığına bir «gəlin» kimi,*
*Həyası, abırı, isməti bitmiş.*

Və ya:

*Fələk bəxti paylayanda*
*Aralığa yaylıq düşüb.*
*Kiminə vüsal, səadət,*
*Kiminə ayrılıq düşüb.*

İnsan qəlbində sevgi adlı möhtəşəm müsiqi gəzdirən varlıqdır. Eşq oduna düçar olmadan, bu atəşlə alışmadan ürəyində hansı müsiqini gəzdirdiyini bilə bilməzsən.

Vüsalın lirik qəhrəmanı da sevir, əzab çəkir, Mövlanənin diliylə haray salır, sevgilisinin xəyalı ilə söhbətləşib, qələmi ilə baş-başa qalır. Bu sevgi ötəri, keçəri, müvəqqəti bir hiss deyil:

*Səpildi könlümə sevgi toxumu,*
*Yerində bir əlçim qəm pöhrələndi.*

Əqidəsi, məsləki, andı-ilqarı həyat yollarına qol-qanad olan nigaran duyğulu, narahat könüllü şair yalnız sevgi qarşısında baş əyir:

*Sözümdən istəyim göyərdi mənim,*
*Dalğatək köksümü döydü məhəbbət.*
*Deyirdim, əyilməz dağlar kimiyəm,*
*Görürəm qəddimi əydi məhəbbət.*

Yaradıcı adam təbiətlə, onun dağı, daşı, bulağı, yağışı, küləyi, istisi, soyuğu ilə həmahəngdir. Təbiətdən yazan şairlər ən təmənnasız insanlardır. Onların dağdan, dərədən, ağacdan, çiçəkdən, quşdan maddi umacaqları yoxdur. Buna görə də bu mövzulu şeirlər səmimiyyəti ilə fərqlənirlər:

*Bulud sığallayır ağ saçlarını,*
*Bilmirəm neçədir yaşı dağların.*
*Çarpışır, vuruşur qarla, boranla,*
*Nələr çəkməyibdir başı dağların.*

Bu xətti nizamlayıb kamilləşdirmək, ideala çatmaq üçün təbiətə üz tutmaq, o yola çıxmaq lazımdır. Hər şey balaca bir toxumdan başladığı kimi... Yetərlidir ki, o toxum saf olsun.

Şeir yazan adamın poetik axtarışlarının özünə doğru gedən yol olduğunu nəzərə alsaq, gənc şairin şeirləri arasında yaşadığı yurdun sözlə çəkilmiş çoğrafi xəritəsi maraq doğurur.

Bu bir daha onun axtarışların başlanğıcında olduğunu göstərir:

*Qoynunu açmışdı Xızı dağları,*
*Bir şeir söylədim, sözümdən öpdü.*
*Əyildim bulaqdan doyunca içdim,*
*Ağbulaq daşları dizimdən öpdü.*

Və yaxud "Şuraabadda bir ovdan var" şeirində bədii lövhələrlə epik təsvir, bizi xəyalən Xəzərin sahilindəki karvanlar doyurub, yolçular ötürən, Şah Abbas mirası qədim ovdana götürür. Sanki oxucu lirik qəhrəmanla bərabər pilləkənlə "ləpələr vurğunu, əsrlər yorğunu" quyunu ziyarət edir, "daşların daş dilindən daş hekayət" dinləyir.

Azərbaycan ədəbiyyatında böyük bir satira məktəbi vardır və bu məktəbin ciddi nümayəndələri tam bir ədəbi epoxa yaratmışlar.

Təqdirəlayiq haldır ki, V.Hicranoğlu bu istiqamətdə qələmini sınamaqdan çəkinmir.

“Cürbəcürlər” və “Dodaqqaçdılar” başlığı altında verilmiş nümunələrdə mənfilikləri, nöqsanları göstərərkən satirik qiymətləndirmədən istifadə edir:

*Qonşumun zənn etdiyi*
*Sonunda doğru çıxdı.*
*Doğruluqdan dəm vuran*
*Axırda oğru çıxdı.*

O, yığcam və lakonik kompozisiya ilə yumşaq təbəssümü düşüncəyə, rişxənd və kinayəni satiraya qata bilir:

*Qürrələndi, öyündü,*
*Onu heç kim qınamadı.*
*Meşə ayını tanıdı,*
*Ayı meşəni tanımadı.*

Yaxşı yazar yaratdıqlarının həm Tanrısı, həm dəmirçisi, həm döyüşçüsüdür. Öz şeiri ilə mübarizə, öz fikirləri üzərində hökmranlıq, öz dediyini

əridərək formaya sala bilmək bacarığı yazarın qarşısında böyük ədəbiyyata gedən üfüqləri al rəngə boyayır.

"Mümkünsüzün arxasınca gedib, görünməzi göstərə bilmək yolunda" addımlamağa inamlı gənc yazar Vüsal Hicranoğluna uğurlar, oxucu sevgisi arzu edirik. Qoy hər kəs bu kitabda qəlbinin musiqisini tapsın.

***Günay Səma Şirvan.***



## Vüsal Hicanoğlu

*(Heybətov Vüsal Hicran oğlu)*

1985-ci il fevralın 27-də Xızı rayonunun Giləzi qəsəbəsində anadan olmuşdur.

2003-cü ildə Mikayıl Müşfiq adına Giləzi qəsəbə orta məktəbini, 2008-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakultəsini bitirib.

2009-cu ildə ordu sıralarından tərxis olunub.

Xızı Rayon İcra hakimiyyətinin Ümumi şöbəsinin böyük mütəxəssisi (müfəttişi) vəzifəsində çalışıb.

2012-ci ildən Xızı rayon Mikayıl Müşfiq adına Giləzi qəsəbə tam orta məktəbində tarix müəllimi işləyir.

Şeir, məqalə və digər səpkili yazıları "Kredo", "Füyuzat", "Sirdaş", "Dağlar yurdu" və s. mətbu orqanlarda, "Zərif beytlərimiz" almanaxında, "Azərbaycan şeir antologiyası"nda, Türkiyə bloqlarında və müxtəlif saytlarda dərc olunub.

## KITABIN İÇİNDƏKİLƏR

Ön söz. “**Kim nə miqdar olsa...”** **..............3**

## ŞEİRLƏR

“Nələri görmədim” ................ 9
Dağların ................ 11
Müşfiqin son şəklinə ................ 13
Arzular ................ 15
İlk və son nəğmə ................ 16
“Göy üzü tərtəmiz...” ................ 19
“Gilə-gilə əriyirəm...” ................ 21
“Dənizi sevmirəm” ................ 22
Əsirgəmə ................ 23
“Ötür xınalı kəklik...” ................ 24
“Qoynunu açmışdı...” ................ 25
Qıyma şairlərə ................ 26
Öz bəxtim... Öz taleyim ................ 27
Allahıma sığınmışam ................ 28
Bu həyat dediyin ................ 30
“Dərdmi...” ................ 31
Bir aha dəyməz ................ 32
Zamanını gözlə ................ 33
Bu mənzildə ................ 35

“Bir gün...” ................ 36
“Biri dedi...” ................ 37
Yox ................ 38
İnsan ömrü ................ 39
Yağ, yağışım ................ 40
Yağış yağır ................ 41
Xəyalın ................ 43
Gəl, gör mənə eşq neylədi ................ 45
Təzadlı dünya ................ 47
“Bəxti dayazların...” ................ 48
“Görəsən...” ................ 49
“Görəsən dərdimi...” ................ 50
Yeri, get ................ 51
Astadan gəz ................ 53
Bir ağacam ................ 55
Mən beləyəm ................ 56
Şuraabadda bir ovdan var ................ 57
Fələklə oyun ................ 59
Anamın nəvələri ................ 60
Dözməz ürək ................ 61
Gətirir, ötürür ................ 62
Zalım fələk ................ 63
İkiliklər ................ 64
Dördlük ................ 65

Soruş ................ 66
“Parıltı gözünü qamaşdırmasın...” ................ 67
Bayatılar ................ 68
Əlçalanlar-alçalanlar ................ 69
Duza gedən qız ................ 70
Dedi, dedim ................ 71
“Deyirdim...” ................ 72
“Uçurdu...” ................ 73
Cürbəcürlər ................ 74
Cinli Ağamirzə ................ 75
Tülkünün daydayı var ................ 76
Təmizlik sorağında ................ 78
Arvaddan qorxan ................ 79
Qonşumun zənni ................ 80
Yalançı ................ 81
“Millət...” ................ 82
Kitabpərəst şair ................ 83
Tanımadı ................ 84
Özünü bilmir ................ 85
İtlə Filin qonaqlığı ................ 86
İntihar ................ 87
Səsvermə ................ 88
Telemüsahibə ................ 89
Televizor ................ 90

## DODAQQAÇDILAR

Suyum on altıncı mərtəbəyə qalxır ................ 93
Həə... Belə de ................ 94
Qəribə and ................ 97
Pul hərisi ................ 98
Qonşuyla söhbət ................ 99
Olanım budur ................ 101
Qardaş, məni necə tanıyırsan ................ 102
İndiki uşaqlar ................ 106
Son söz əvəzi ................ 108

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Çapa imzalanmışdır: 28.04.2017.
Kağız formatı: 70x90 $^{1}/_{32}$. Həcmi: 3,75 ç.v.
Sifariş 8. Tiraj 500.
«Təknur» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya və qrammatikasına görə heç bir cavabdehlik daşımır.
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Mətbəənin direktoru: **Ələkbər Məmmədov**
~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~
Telefon: **408-18-30; 050-222-40-25.**

## Mən beləyəm...

Mən beləyəm...
Saflığımdan gen
düşmərəm.
Təmizliyi, sədaqəti
Milyonlara dəyişmərəm...
Gözlərimdə bu dünyanın
Var-dövləti bir həvəsdir,
İsti ocaq, kasıb komam,
Dürüstlüyüm mənə bəsdir.
Adı insan, özü ilan olanları
Köməyimə səsləmirəm...
Nəfsin ani ləzzətini
İstəmirəm...
Bir ağacam
Köküm üstə boy atmışam,
Babaların arzusunu
əməlimdə yaşatmışam...

2017

Mən beləyəm...

Vüsal Hicranoğlu

Vüsal Hicranoğlu



# Mən beləyəm...